# Xalqımızın tarixi zəfəri gələcəyimizin daha böyük uğurlarından xəbər verir




***Müzəffər ordumuzun əks-həmlə əməliyyatı ilə başladığı və 44 gün davam edən Vətən müharibəsi tarixi zəfərimizi gerçəkləşdirdi və bu parlaq qələbə ilə Ermənistanın 30 illik işğalına son qoyuldu. Xalqımızın tarixinə möhtəşəm Zəfər Günü kimi qızıl hərflərlə yazılan 2020-ci il 8 noyabr bayramı ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun güc-qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsidir. Bu, eyni zamanda, bütün dünyaya xalqımızın torpaq, yurd sevgisinin, haqq-ədalət uğrunda mübarizə əzminin, yumruq kimi bir olmağının, milli birliyinin nümayişinin təsdiqinə çevrildiyi gündür. Bu, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qanlarının yerdə qalmadığını təsdiqləyən 44 günlük qəhrəmanlıq salnaməsinin parlaq ifadəsidir.***

Bu qələbənin əsasında xalqımızın əzmkarlığı, əminliyi dayanırdı. Hər bir vətəndaşımız müharibənin ilk günündən ordumuzun döyüşü zəfərlə başa vuracağına inanırdı. Ona görə ki, əvvəla bu əminlik haqdan, ədalətdən qaynaqlanırdı. Çünki erməni faşizmi varlığının mövcud olduğu uzun bir dövrdə havadarlarının dəstəyi ilə torpaqlarımıza sahiblənmişdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində isə ərazimizin daha 20 faizini qəsb edərək, insanları doğma yurd-yuvalarından didərgin salmışdı.

Xalqımız, eləcə də hər bir keçmiş məcburi köçkün 30 ilə yaxın bir müddətdə düşmənin amansızlığını, törətdiyi vəhşiliyi unutmurdu, qisasın qiyamətə qalmayacağını yaxşı bilirdi. Doğma torpaqlarından zülmlə qovulan soydaşlarımız mənəvi əzab içində yaşasalar da, gələcəyə ümidlə baxır, Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyəti, müdrik siyasəti sayəsində ordumuzun parlaq qələbəsi ilə illərlə ürəklərində gəzdirdikləri istəklərinə qovuşacaqlarına, Vətən həsrətinə son qoyulacağı günü görəcəklərinə inanırdılar. Möhtərəm dövlət başçımız cənab İlham Əliyev də insanların yurda qayıdış arzusundakı qətiyyətə əsaslanaraq Vətən müharibəsində əldə edilən möhtəşəm qələbədən sonrakı çıxışlarının birində deyirdi: "Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər.Bu, xalqımızın böyüklüyünü bir daha göstərir".

Vətən müharibəsində parlaq qələbəmizi şərtləndirən bir amili də xatırlatmaq istərdim. Bu, döyüşlərdə misilsiz qəhrəmanlıqlar nümayiş etdirən hərbçilərimizin Vətən məhəbbəti ilə bağlıdır. Yüksək vətənpərvərlik ruhu ilə, torpağa, dövlətə sonsuz sevgilərlə savaşa atılan gənc əsgər və zabitlərimiz üçün Qarabağ, sadəcə, torpaq demək deyildi. Onlar Qarabağın həm də xalqımızın ləyaqəti, şərəfi, taleyi olduğunu yaxşı bilirdilər. Ona görə də ordumuz bu hissələ, bu yanğı ilə 44 gün ərzində mərdliklə döyüşdü, misilsiz qəhrəmanlıqlar nümayiş etdirdi. Füzuli uğrunda savaşda əsgər və zabitlərimiz tərəfindən istilaçının 30 il ərzində qurduğu istehkamların böyük peşəkarlıqla dağıdılması, yüksəkliklərdə düşmən maneələrinin şücaətlə yarılması, Şuşa qayalıqlarını cəsarətlə dırmaşaraq bu qədim şəhərimizdən erməni faşistlərinin süngü ilə qovulması bunun bariz ifadəsi idi.

Azərbaycan Ordusunun Vətən müharibəsindəki əzmkarlığı, şücaəti, mərdliyi həm də ölkəmizdə ötən illər ərzində gənclər siyasətinin uğurla həyata keçirilməsi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısı prezidentlik fəaliyyətində gənclərə diqqət və qayğını daim diqqət mərkəzində saxlayıb. Buna görə də Azərbaycanda gənclik ötən dövrdə cəmiyyətin aparıcı qüvvəsi kimi çıxış edib, sabitliyin, təhlükəsizliyin təmin olunmasında, möhkəmlənməsində xüsusi rol oynayıb, eyni zamanda, həyatın ayrı-ayrı sahələri ilə bağlı çağırışlara operativ yanaşmaqla beynəlxalq inteqrasiya prosesinin fəal iştirakçısına çevrilib.

Azərbaycan gəncliyi 30 il ərzində Ermənistanın işğalı səbəbindən ölkəmizin hansı ağrı-acıları yaşadığını, neçə-neçə azərbaycanlı ailəsinin məhv edildiyini, valideynlərinin doğma yurdlarından didərgin salındıqlarını yaxşı bilir. Azərbaycan gəncliyi Ermənistan ordusu tərəfindən törədilən vəhşilikləri heç zaman unuda bilmir, Ermənistan rəhbərliyi tərəfindən törədilən Xocalı soyqırımını yaddan çıxarmır, günahsız qurbanların xatirəsini daim əziz tutur.

Bir sözlə, Azərbaycan əsgər və zabiti Vətən müharibəsində erməni faşizminə qarşı əsl mərdlik, qəhrəmanlıq nümunələri göstərdilər, ölkəmizin ərazi bütövlüyünün bərpası, suverenliyinin möhkəmlənməsi, güc-qüdrətinin daha da artması naminə canlarından keçməyə hazır olduqlarını döyüşlərdə göstərdikləri fədakarlıqla, şücaətlə təsdiqlədilər.

Qırx dörd günlük ölüm-dirim savaşında Azərbaycanın parlaq qələbəsi də bu cəsur gənclərin Vətən, torpaq sevgisi ilə haqq-ədalət yolunda çəkinməyərək cəsarətlə mübarizə aparmalarının, qorxmadan, çəkinmədən, necə deyərlər, ölümün gözünə dik baxmalarının nəticəsi idi.

Bax, o əsgər və zabitlərimiz arasında "şəhidlik vətənpərvərliyin ən ali məqamıdır, şəhidlik şərəf, qürur, hünər və qeyrət simvoludur", – sözləri ilə döyüşlərə atılaraq, qəhrəmanlıqla şəhidlik zirvəsinə yüksələnlər də, sağlamlığını itirən qazilərimiz də oldu.

Şəhidlik ucalığına yüksələnlər, o zirvədə əbədi yurd salanlar heç zaman unudulmur, yaddan çıxarılmır. Təkcə öz ailəsində, doğmaları, əzizləri arasında deyil, bütün ölkədə, el-obada daim hörmətlə anılır, ehtiramla yad edilir.

Burada bir məqamı da diqqətə çatdırmağı zəruri bilirəm. Azərbaycan Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, Vətən müharibəsindəki qələbəmizdə döyüşçülərimizin vətənpərvərlik ruhunun son dərəcə yüksək olması ilə bərabər, silahlı qüvvələrin güc-qüdrəti də önəmli rol oynadı. Çünki ordumuz ən müasir silahlarla, hərbi texnika və müdafiə təyinatlı qurğularla tam təchiz edilmişdi. Silahlı qüvvələrimizin hərbi-texniki və döyüş hazırlığı ən yüksək səviyyədə idi. Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək kimi mühüm vəzifəni uğurla gerçəkləşdirmişdi.

Ordu quruculuğu istiqamətində həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətindədir.

Dövlətimizin başçısının rəhbərliyi ilə əsgər və zabitlərimiz 44 gün ərzində cəbhədə necə uğurlar əldə etmişlərsə, hansı qəhrəmanlıqlar, igidliklər göstərmişlərsə, erməni faşizminin torpaqlarımıza vurduğu dərin yaraların da eləcə sürətlə sağaldılacağına, bu istiqamətdə önəmli nəticələrə nail olunacağına hazırda heç kim şübhə etmir. Qarabağ və Şərqi Zəngəzurun uğurla bərpa olunmasına, dünyanın ən gözəl, yaraşıqlı məkanlarından biri kimi tanınmasına hamı ürəkdən inanır.

Sonda 22 noyabrda qeyd edəcəyimiz ədliyyə işçilərinin peşə bayramı ilə bağlı bir neçə kəlmə deməyi özümə borc bilirəm. Respublikamızın ədliyyə işçiləri tarixi Zəfərimizin təntənə ilə qeyd edildiyi bu günlərinin yaşatdığı sonsuz sevinc və fərəh içində ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsis olunan ədliyyə işçilərinin peşə bayramını qarşılayır, qalib bir ölkənin vətəndaşları olaraq respublikamızın gələcək uğurlarına daha sanballı töhfə vermək üçün inamla, həvəslə fəaliyyət göstərirlər.

Belə ki, müstəqil Azərbaycan ədliyyəsinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılıb. Azərbaycanın müstəqilliyinin əbədiliyini, dövlətin sarsılmazlığını, demokratik yüksəlişini gerçəkləşdirən dahi şəxsiyyət fəaliyyəti dövründə məhkəmə-hüquq sisteminə mühüm önəm verib, bu sahənin inkişafına xüsusi qayğı ilə yanaşıb. Dövlətimizin başçısı İlham Əliyev Prezident kimi fəaliyyət göstərdiyi ötən illər ərzində isə bu istiqamətdə davamlı islahatlar həyata keçirib. Ədliyyə sisteminin təkmilləşdirilməsinə, Avropa standartlarına tam uyğunlaşdırılması məqsədilə müasirləşdirilməsinə böyük əhəmiyyət verib, milli qanunvericiliyin beynəlxalq tələblər səviyyəsinə çatdırılmasını daim diqqət mərkəzində saxlayıb.

Bütün bunların nəticəsidir ki, Azərbaycan son 18 ildə bir sıra mütərəqqi beynəlxalq təşəbbüslərə, o cümlədən, Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasına, Avropa Şurasının Korrupsiyaya ilə əlaqədar cinayət və mülki hüquqi məsuliyyət haqqında konvensiyalarına qoşulub.

Şübhəsiz ki, həyata keçirilən layihələr hüquqpozmaların aşkarlanması, qarşısının alınması, nəticələrinin aradan qaldırılması, sosial ədalətin bərpa edilməsi və əhalinin dövlətə etimadının möhkəmləndirilməsini şərtləndirib.

***Orxan CƏBRAYILOV,***
***Bakı Apellyasiya Məhkəməsinin ümumi şöbəsinin müdiri***